# Vətəndaşların qəbulu keçirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Quba şəhərində vətəndaşları qəbul edib.

Vətəndaşlarla görüşdə əlilliyin qiymətləndirilməsi, bərpa müalicəsinə köməklik göstərilməsi, reabilitasiya vasitələri ilə təminat, əmək hüquqlarının müdafiəsi, məşğulluğun təminatı, aktiv məşğulluq tədbirlərinə və özünüməşğulluq proqramına cəlbolunma, həmçinin vətəndaşların bu və ya digər sosial təminat növünə hüququnun müəyyən edilməsi və s. məsələlərlə əlaqədar müraciətləri dinlənilib. Qəbulda vətəndaşlar tərəfindən qaldırılan məsələlərin həlli ilə bağlı tədbirlər görülüb. Müraciətlərinə uyğun olaraq, bir sıra vətəndaşların aktiv məşğulluq proqramlarına və reabilitasiya tədbirlərinə cəlb edilməsi tapşırılıb, onlara ətraflı izahatlar verilib.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov sentyabrın 19-da Şəkidə Oğuz, Qəbələ və Şəki rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qurumdan AZƏRTAC-a bildiriblər ki, qəbulda hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Xidmət rəisi tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə həllini tapıb. Araşdırılmasına ehtiyac duyulan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün qeydiyyata alınıb.

Həmin gün Xidmət rəisinin müavini, general-mayor Mayıl Şahverdiyev Zaqatalada Balakən, Qax və Zaqatala rayonlarından olan vətəndaşları qəbul edib.

Xidmət rəhbərliyinin keçirdiyi qəbullarda 32 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, şəhid adı və statusunun verilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub. Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

* * *

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Gəncə şəhərində Gəncə, Samux və Kəlbəcərdən olan sakinləri qəbul edib.

Gəncə Şəhər Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Gəncə şəhərindən, Samux və Kəlbəcər rayonlarından 58 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri əsasən içməli su təchizatı və kanalizasiya xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Hər bir vətəndaşı dinləyən "Azərsu" ASC-nin sədri müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.